BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ
MƏRKƏZİ

TƏHLİL

# Yeni dünya nizamı quruculuğu prosesi fonunda aktuallaşan təhlükəsizlik amili


Mətin Məmmədli

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


OKTYABR 2025

## Yeni dünya nizamı quruculuğu prosesi fonunda aktuallaşan təhlükəsizlik amili

Hazırkı qlobal mühitdən aydın görünür ki, birqütblü dünya nizamı olan post-soyuq müharibə dövrü artıq başa çatmış və yeni dünya nizamının qurulması prosesi gedir. Və bu prosesdə hər bir güc mərkəzi öz mövqeyini qorumağa və yaxud gücləndirməyə çalışır. Məsələn, ABŞ yeni dünya nizamında da özünün lider mövqeyini qorumaq siyasətinə üstünlük verir. Həmçinin Çin, Rusiya, Hindistan və digər böyük, regional güclər də yeni nizamda özlərinin təsir dairələrini müəyyənləşdirmək, beynəlxalq sistemin aparıcı aktorlarından biri olmaq siyasətini həyata keçirir. Onu da qeyd edək ki, post - soyuq müharibə dövrünün başa çatması hətta ABŞ başda olmaqla Qərb tərəfindən də qəbul edilir. Məsələn, 2022-ci ilin oktyabrında ABŞ-nın qəbul etdiyi Milli Təhlükəsizlik Strategiyasında açıq şəkildə bildirilir ki, “post-soyuq müharibə dövrü bitib” və bu gün əsas güclər arasında rəqabət güclənib.[1] Bu sənəd Çin və Rusiyanı ABŞ - nın qlobal, regional maraqlarına əsas təhdid, çağırış kimi təqdim edir. Eyni zamanda NATO-nun 2022-ci ildə qəbul etdiyi Strateji Konsepsiyada təhlükəsizlik mühitinin dəyişdiyi, geosiyasi gərginliyin yüksəldiyi xüsusi vurğulanır və Avro-Atlantik məkanında təhlükələrdən biri kimi Rusiya göstərilir. Yeni dünya nizamının qurulması ilə bağlı qısa olaraq onu qeyd etmək olar ki, XX əsrin sonları və XXI əsrin əvvəllərindən başlayaraq Çin, Rusiya, Hindistan və bir sıra digər yüksələn dövlətlər həm iqtisadi, həm də hərbi baxımdan əhəmiyyətli artım göstərdilər. Xüsusilə Çin iqtisadiyyatını həm də müxtəlif təşəbbüslərlə (“Bir Kəmər–Bir Yol” və s.) genişləndirərək qlobal ticarət əlaqələrini yenidən formalaşdırmağa və hərbi qüdrətini sürətlə artırmağa başladı. Həmçinin Braziliya, Türkiyə, Körfəz ölkələri və digər dövlətlər regional və qlobal səviyyədə təsirli aktorlar kimi ortaya çıxaraq müstəqil güc mərkəzi quruculuğu prosesini gücləndiriblər. Bu ölkələrin bəziləri iqtisadi, enerji və təhlükəsizlik maraqlarını ön plana çəkərək ənənəvi ittifaqlardan uzaqlaşıb öz milli maraqlarını qorumağa çalışırlar. Nəticədə, qlobal nüfuz diffuziyası artıb və daha çox dövlət öz mövqeyini gücləndirmək cəhdlərinə keçib. Bütün bunlar bir daha təsdiq edir ki, əvvəlki “qaydalı dünya” modeli sarsılıb və qlobal strateji dizayn yenidən formalaşır. İqtisadiyyatda yeni maliyyə institutları (məsələn, BRICS Bankı, Asiya İnfrastruktur İnvestisiya Bankı) yaradılır, ticarət müharibələri, sanksiyalar və texnoloji blokadalar çoxalır ki, bunlar da dünya düzənində yeni normaların formalaşdığını göstərir[2].

Beləliklə, güc balansının dəyişməsi ilə müşahidə edilən yeni dünya nizamı quruculuğu prosesi qlobal və regional böhranların baş verməsinə, qarşıdurma meyillərinin güclənməsinə, münaqişələrin artmasına və yaxud, mövcud

1 https://aircenter.az/uploads/I6hnGYWoiKDL.pdf#:~:text=oktyabr%C4%B1nda%20Birl%C9%99%C5%9Fmi%C5%9F%20%C5%9Etatlar%20h%C3%B6kum%C9%99tinin%20t%C9%99sdiq,%C4%B1n%20qlobal

2 https://www.weforum.org/stories/2024/05/why-geopolitics-matters-more-than-ever-in-a-multipolar-world/

münaqişələrin daha da kəskinləşməsinə təkan verir. Hazırda dünya sistemi "supergüclərarası qarşıdurma, amansız müharibə və köhnə beynəlxalq idarəçilik strukturlarının effektli qərarvermə qabiliyyətinin tükənməsi ilə parçalanır[3]". Bir sıra təhlilçilərin də gəldiyi qənaət odur ki, nizamın ötürülməsi dövründə sabitlik pozulur və münaqişələr artır. Bəzi siyasətçilər hazırda soyuq müharibədən, yaxud hətta "yeni 3-cü dünya müharibəsinin" başlanmasından danışırlar. Bu vəziyyətdə köhnə dünyadakı kimi realpolitik prinsipləri - yəni güc balansı və geosiyasi təsir uğrunda mübarizə - yenidən üstünlük qazanıb. Faktiki olaraq, beynəlxalq sistem unipolar nizamdan çoxqütblü gərginliyə keçid edir ki, bu da müttəfiqlərin bərabərsizlik deyil, bir-birinə meydan oxuyan güc mərkəzlərinin rəqabətidir. Belə bir keçid dövründə "köhnə ölür, yenisi doğulmursa" prinsipinə uyğun xronik simptomlar əmələ gəlir. Bu isə qlobal təhlükəsizlik arxitekturasını və beynəlxalq münasibətlərin əsas strukturlarını köklü surətdə dəyişdirir.

## Aktuallaşan təhlükəsizlik amili

Qeyd etdiyimiz kimi yeni beynəlxalq nizamda əsas tendensiyalardan biri münaqişələrin sayının artması, kəskinləşməsi və daha geniş yanaşsaq təhlükəsizlik amilinin aktuallaşmasıdır. Təbii ki, təhlükəsizlik amili beynəlxalq münasibətlər sisteminin bütün dövrlərində aktual olub, bununla belə, beynəlxalq nizamların transformasiyası dövründə bu aktuallıq daha da artıb.

Təhlükəsizlikdən danışarkən bu fenomenin özündə nəyi ehtiva etdiyinə nəzər salaq. Bir çox hallarda təhlükəsizlik anlayışı bəzi tədqiqatçılar tərəfindən sülhlə eyniləşdirilir. Fikrimizcə, bu yanaşma o qədər də əsaslı deyil. Təhlükəsizlik sülhlə müqayisədə daha geniş anlayışdır. Müasir siyasətşünaslıqda da təhlükəsizlik özündə bir çox struktur elementi birləşdirən fenomen kimi qəbul edilir. Məsələn, A.Volfers təhlükəsizliyi *obyektiv* olaraq "qazanılmış dəyərlərin təhdidlərdən azad olması", *subyektiv* olaraq isə bu dəyərlərin hücuma məruz qalacağı qorxusunun olmaması kimi təsvir etmişdir. J.Qaltunqun "müsbət sülh" anlayışına görə isə davamlı təhlükəsizlik üçün sadəcə müharibəsizlik kifayət etmir; struktur zorakılıqların aradan qaldırıldığı sabit və müsbət sülh qurulmalıdır. Başqa sözlə, dövlətlər arasında etimad mühiti, əməkdaşlıq, həmçinin, azad bazar iqtisadiyyatı, əhali rifahı, bərabərlik və s. bu kimi sahələr də təhlükəsizliklə bilavasitə bağlıdır. Daha dəqiq desək sadəcə müharibəsizlik (negativ sülh) dövlətlər üçün yetərli deyil: təhlükəsizlik *"müsbət sülh"* səviyyəsində təmin olunmalıdır. Bütün bunları nəzərə aldıqda əminliklə qeyd etmək olar ki, davamlı sülh struktrı - yəni pis vəziyyəti, etimadsızlığı, təhdid qorxusunu və iqtisadi geriliyi aradan qaldıran sabit bir mühit - mövcud olmadıqca həqiqi təhlükəsizlik

[3] https://www.chathamhouse.org/2025/06/why-peacebuilding-fails-and-what-do-about-it/report-summary

mümkün deyil. Başqa sözlə, iqtisadi rifah, bərabər hüquqlar, etnik və dini konfliktlərin həlli kimi məsələlər də təhlükəsizlik dəyərlərinə daxildir. Bu səbəbdən də, dövlətlər təkcə silahlı toqquşmalardan qorunmağa deyil, eyni zamanda iqtisadi və sosial sabitliyi təmin etməyə çalışırlar. Hazırki qlobal mühitdə bu məqsəd üçün beynəlxalq əməkdaşlıqla yanaşı, milli müdafiə strategiyalarına dəstək artırılır. Milli təhlükəsizlik və müdafiə strategiyalarında kibertəhlükəsizlik, informasiya müharibəsi və terrorizm kimi qeyri-ənənəvi təhdidlər də dövlətlərin təhlükəsizlik konsepsiyasına daxil edilib.

Əvvəldə də qeyd etdiyimiz kimi davam edən mürəkkəb geosiyasi proseslər fonunda son illərdə qlobal miqyasda münaqişələrin sayı artıb. Məsələn, PRIO-nun (Oslo Sülh Tədqiqatları İnstitutu) məlumatına görə, 2023-cü il 59 dövlət əsaslı münaqişə ilə müşahidə olunmuş, bu göstərici 1946-cı ildən bəri rekord səviyyə sayılmışdır[4]. Burada dünya səviyyəsində artan silahlı qarşıdurmaların sayı və intensivliyi də diqqəti cəlb edir: ACLED məlumat bazasına əsasən 2020-ci ildə təxminən 104 min münaqişə hadisəsi qeydə alınmışdı, 2024-cü ildə isə bu rəqəm demək olar ki, 200 minə çatıb[5]. Beləliklə, qlobal səviyyədə zorakılıq və hərbi toqquşmlar ikiqat artıb. Həmçinin, onu da qeyd edək ki, 2021-2023-cü illər dövrü son üç onilliyin ən qanlı ili olub. Bütün bu tendensiyalar təbii ki, dövlətləri təhlükəsizlik prioritetlərini yenidən müəyyənləşdirməyə sövq edir. Belə ki, qlobal güc qarşıdurmaları və regional münaqişələr dövlətlərin hərbi strategiyalarına yenidən nəzər salmağa, onları sərtləşdirməyə sövq edir. Qlobal miqyasda hərbi büdcənin artmasının əsas səbəblərindən biri kimi Rusiya-Ukrayna müharibəsi və İsrail-Həmas toqquşması göstərilir. Məlum olduğu kimi hər iki münaqişə geosiyasi, təhlükəsilik təhdidi kimi qəbul olunur. Məhz bu səbəbdən Avropa, Asiya və Yaxın Şərq regionlarında gərginlik müşahidə edilir. Bu kontekstdə qeyd etmək olar ki, müdafiə xərcləri son illərdə kəskin artmaqdadır: 2024-cü ildə dünya üzrə hərbi büdcə 2718 milyard ABŞ dolları təşkil edib ki, bu da 2023-cü ilə nisbətən 9.4% artım deməkdir[6]. Eyni zamanda, 100-dən çox ölkə son hesabat ilində müdafiə xərclərini artırmışdır. Dövlətlər vəziyyətin təhlükəli olduğunu qəbul edib və hərbi hazırlıqlarını gücləndirirlər. Bunun nəticəsidir ki, qlobal hərbi xərclərin ÜDM-də payı yüksəlməkdədir və bu hal dünya iqtisadiyyatını maddi olaraq yükləyir.

Onu da qeyd edək ki, dövlətlərin son illərdə hərbi büdcələrini artırması yalnız Rusiya - Ukrayna müharibəsi və İsrail - Həmas toqquşması ilə bağlı deyil. Məsələn, 2022-ci ilin aprelində Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) açıqladığı hesablamalara görə, dünya üzrə hərbi xərclər 2021-ci ildə 0.7 % artaraq tarixdə ilk dəfə iki trilyon dolları keçmişdir[7]. Müşahidələr göstərir ki, ümumiyyətlə, son on iki ildə dövlətlərin hərbi xərcləri əhəmiyyətli dərəcədə artmışdır. Məsələn,

---

[4] https://www.prio.org/publications/14006
[5] https://acleddata.com/media-citation/data-shows-global-conflict-surged-2024-washington-post
[6] https://www.newsweek.com/map-shows-military-spending-increase-2066134
[7] https://www.sipri.org/media/press-release/2022/world-military-expenditure-passes-2-trillion-first-time

2013-2021-ci illərdə dünya ölkələri hərbi xərclərini 21.3 % artırmışdır[8]. Nəhayət, SIPRI-nin məlumatına görə, əvvəldə də qeyd edildiyi kimi, 2024-cü ildə ümumdünya müdafiə xərcləri 2718 milyard dollara çatmış, bu da illik hesabatda ən böyük artım hesab olunur[9]. Burada o da əlavə edilməlidir ki, dünyanın on beş ən böyük hərbi büdcəsi olan ölkəsinin (ABŞ, Çin, Rusiya, Almaniya, Hindistan və s.) hamısı hərbi xərclərini artırıb və birlikdə qlobal büdcənin 60%-ni təşkil ediblər. Rəqəmlərə əsasən, ABŞ müdafiəyə 997 milyard dollar xərcləyərək qlobal hərbi büdcənin 37%-ni təşkil etmiş, Çin 314 milyard (7% artım) və Rusiya 149 milyard (38% artım) dollar sərf etmişdir[10].

Avropada da vəziyyət oxşardır: qitədə (Rusiya daxil) müdafiə xərcləri 17% artaraq 693 milyard dollara yüksəlib və bu, soyuq müharibə dönəminin səviyyəsini keçib[11]. Məsələn, uzun illər pasifist siyasət həyata keçirən Almaniya xərclərini 28% artım ilə 88.5 milyard dollar səviyyəsinə çıxarıb və bununla da Mərkəzi-Qərbi Avropada ən böyük hərbi büdcəyə sahib ölkəyə çevrilib[12]. Polşa xərclərini 31% artıraraq 38 milyard dollara çatdırıb[13]. Ukrayna da vergi gəlirlərinin böyük hissəsini hərbi ehtiyaclara yönəldərək büdcəsini genişləndirir. Bu kontekstdə misalları xeyli artırmaq olar. Həmçinin, qlobal miqyasda qüdrətli dövlətlər hesab olunan ölkələr öz strateji maraqlarını müdafiə etmək üçün silahlı qüvvələrini artırırlar.

Dövlətlərin siyasətində təhlükəsizlik amilinin aktuallaşmasının digər nəticələri iqtisadi və sosial sahədə də özünü göstərir. Daha dəqiq desək dünya ölkələrinin hərbi büdcələrini artırmasının iqtisadi - sosial nəticələri cəmiyyətlər üçün uzunmüddətli ola bilər. Bu isə o deməkdir ki, müdafiəyə ayrılan vəsaitlər artdıqca təhsil, səhiyyə və infrastruktura investisiyalar məhdudlaşır. Yüksələn büdcə yükü borc, inflyasiya və dövlətin sosial öhdəliklərini çətinləşdirir.

Digər tərəfdən, məhz təhlükəsizlik müstəvisində dövlətlərarası siyasət dəyişir. Məsələn, NATO və digər güc blokları öz strateji planlarını yenidən gözdən keçirir, beynəlxalq müqavilələr, silah nəzarəti və diplomatik mexanizmlər zəifləyir. Nəticədə, qlobal silahlanma yarışı və müttəfiqlik siyasətində qızğın dövrün başladığına şahidlik edirik. Yeni nüvə silahı yarışının təhlükəsi də aktualdır: köhnə nüvə müqavilələrinin müddətinin başa çatması və yeni nəzarət mexanizmlərinin olmaması gələcəkdə

---

[8] https://www.euronews.com/green/2022/11/18/worlds-richest-nations-spend-30-times-more-on-armed-forces-thanclimate-finance

[9] https://www.sipri.org/media/press-release/2025/unprecedented-rise-global-military-expenditure-european-and-middle-east-spending-surges

[10] Map Shows Nations Raising Military Spending As Global Tensions Escalate - Newsweek

[11] https://www.sipri.org/media/press-release/2025/unprecedented-rise-global-military-expenditure-european-and-middle-east-spending-surges

[12] https://www.politico.eu/article/germany-berlin-europe-russia-ukraine-rearmament-global-defense-spending/

[13] https://www.euronews.com/my-europe/2025/04/29/global-military-expenditure-sees-steepest-year-on-year-rise-since-end-of-cold-war

təhlükəsizliyi daha da poza bilər.[14] Bütün bunlarla bərabər, onu da əlavə edək ki, əslində, ordu və silahlanma üstünlüyü uğrunda mübarizənin intensivləşdiyi bir zamanda dövlətlərin sülhdən daha geniş anlayış olan təhlükəsizlik məsələsinə xüsusi önəm verməsinin məntiqini anlamaq olar.

Beləliklə, gəlinən qənaət ondan ibarətdir ki, yeni dünya nizamı quruculuğu və təhlükəsizlik faktorunun önə çıxması bir-biri ilə sıx bağlıdır. Keçmiş qlobal modelin dağılması və çoxsaylı münaqişələr dövlətlərin təhlükəsizlik məsələsinə yönəlməsini tələb edir. Bu isə həm silahlı qüvvələrin gücləndirilməsi, həm də yeni təhlükəsizlik mexanizmlərinin axtarılmasına gətirib çıxarır. Dövlətlərin müdafiə xərclərini artırması, beynəlxalq razılaşmaların pozulması və münaqişələrin sayının yüksəlməsi geosiyasi reallıqları daha da gərginləşdirir. Bütün bunlar göstərir ki, müasir dünyada sülhün qorunması təkcə silahların susdurulması deyil, həm də siyasi - iqtisadi ədalət, sosial stabillik və beynəlxalq hüququn gücləndirilməsi kimi kompleks tədbirlərlə mümkündür.

**Müəllif: Mətin Məmmədli, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi**

[14] https://www.chathamhouse.org/2025/09/it-may-take-generation-stable-new-world-order-emerge#:~:text=Other%20areas%20of%20global%20governance,greater%20insecurity%20in%20the%20future